HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU
PUBLİK HÜQUQİ ŞƏXS

HÜQUQ SAHƏSİNDƏ
MƏQALƏ DƏRC EDƏN JURNALLARA DAİR

# MONİTORİNQ HESABATI

Bakı - 2025

HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU
PUBLİK HÜQUQİ ŞƏXS

# Hüquq sahəsində məqalə dərc edən jurnallara dair İKİNCİ MONİTORİNQ HESABATI

## Giriş

Bu hesabat ölkədə nəşr olunan hüquq jurnallarının hazırkı vəziyyəti barədə məlumatların toplanması məqsədilə hazırlanıb. Hüquqşünaslar (152 respondent) və hüquq jurnalları (18 respondent) arasında elektron sorğu keçirməklə hüquq jurnallarının və onlara olan münasibətin qiymətləndirilməsi və 2024-cü ildə hazırlanmış birinci hesabatda göstərilən məlumatlarla müqayisəsi hazırkı monitorinqin əsas istiqamətini təşkil edib.

Hesabat üç bölmədən ibarətdir. *Birinci bölmədə* monitorinqin aparılması metodologiyası təsvir edilmişdir. Bu bölmədə monitorinqin məqsədi, aparılma qaydası və təşkili ilə bağlı texniki məsələlərdən bəhs olunur.

*İkinci bölmədə* hüquq sahəsində məqalə dərc edən jurnallarla əlaqədar hüquqşünaslar arasında keçirilən sorğunun nəticələri barədə məlumatlar əks olunur. Bu bölmədə hüquqşünasların iş təcrübəsi, vəzifəsi, hüquq jurnallarında dərc olunan məqalələrin oxunma vəziyyəti, ən çox oxunan jurnallar, jurnallara məqalə yazmaq maraqları, yazılan məqalələrin çap olunmasına dair rəylər, hüquq jurnalları ilə əlaqədar problemlər, jurnalların vahid elektron bazasına olan maraq və hüquqşünasların təklifləri barədə məlumatlar verilir.

*Üçüncü bölmədə* hüquq sahəsində məqalə dərc edən jurnallar arasında keçirilən sorğunun nəticələri barədə məlumatlar qeyd olunur. Bu bölmədə jurnalın adı, təsis edildiyi il, nəşr edilmə tezliyi və dili, Ali Attestasiya Komissiyasının siyahısında yer alması, saytı və sosial-media hesabı, məqalələrin çap üçün təqdim edilməsi və qəbulu, əməkdaşların və abunəçilərin sayı, hər hansı buraxılışın elektron versiyasının oxunma sayı, beynəlxalq reytinq və ya databazada yer alması, eləcə də jurnalların fəaliyyətində rast gəlinən əsas problemlərdən bəhs edilir.

Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (bundan sonra – AAK) Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısında **hüquq elmləri üzrə jurnalların sayı[1] 16 elm sahəsi üzrə 427 jurnalın cəmi 4,4%-ni təşkil edir[2]**. Bu, müxtəlif elm sahələri üzrə məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısında ən aşağı göstəricilərdən biridir.[3]

AAK-ın siyahısında hüquq elmləri sahəsi üzrə yer alan 19 jurnaldan[4] 10-u sorğuda iştirak edən hüquqşünaslar tərəfindən ən az oxunan jurnallar sırasındadır. AAK-da doktorantlar üçün 5 elmi məqalənin ən azı 3 jurnalda çapı tələbi qoyulur. Monitorinqin

---

[1] Ümumilikdə 427 jurnaldan 19-u hüquq elmləri sahəsində dərc olunur. Məlumat 2024-cü ilə aiddir. Daha ətraflı buradan tanış ola bilərsiniz: https://aak.gov.az/single/334

[2] Azərbaycan Respublikasında məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər elm sahələri üzrə dövri elmi nəşrlərin siyahısı https://aak.gov.az/single/334

[3] Ən aşağı sətirdə 17 jurnal ilə fizika və astronomiya qərarlaşmışdır. Kimya və hüquq elmləri isə hər biri 19 jurnal olmaqla sondan ikinci yerdədir.

[4] https://aak.gov.az/single/422

nəticələrindən də göründüyü kimi, AAK-ın siyahısına daxil olan jurnalların hüquqşünaslar tərəfindən ən az oxunmasını nəzərə alsaq, bu hal AAK-ın siyahısına, eləcə də hüquq məqalələri üçün qoyulan tələblərə yenidən baxılmasını zəruri edir.

Respondentlər tərəfindən **ən çox oxunan 5[5] hüquq jurnalı** sırasında AAK-ın siyahısında olan 3 jurnal - "Qanun" jurnalı, "Azərbaycan Hüquq Jurnalı" və "Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalı yer alır ki, bu da birinci hesabat dövrü ilə müqayisədə aşkar irəliləyişə dəlalət edir. Belə ki, birinci monitorinq dövründə ilk beşlikdə AAK-ın siyahısında olan jurnallardan yalnız biri yer almışdır. Sorğuda iştirak edənlərin rəyinə əsasən ən çox oxunan hüquq jurnalları aşağıdakılardır:

1. "Azərbaycan vəkili" elmi-praktiki hüquq jurnalı (57,2%);
2. "Qanun" elmi hüquq jurnalı (38,8%);
3. "Azərbaycan hüquq jurnalı" (37,5%);
4. "Baku State University Law Review" jurnalı (27,6%);
5. "Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalı (19,7%);
6. "İnjuria" jurnalı (19,7%).

Monitorinqin nəticələri onu deməyə əsas verir ki, hüquq ictimaiyyəti arasında hüquq sahələri ilə bağlı məqalələr oxumağa və yazmağa maraq böyükdür, lakin jurnalların elektron formatda əlçatan olmaması və dərc edilən məqalələrin keyfiyyətinin aşağı olması bu sahənin inkişafına mane olur. Birinci monitorinq dövründə respondentlər jurnalların əsas problemi qismində dərc edilmə üçün kifayət qədər maliyyə vəsaitinin olmadığını bildirdikləri halda (respondentlərin 38,5%-i), hazırkı sorğuda 3 əsas problem önə çıxır: yalnız elmi-təhsil müəssisələrinin tələblərinə cavab vermək üçün məqalə çap olunur və formal xarakter daşıyır – respondentlərin 19,7%; məqalələrdə praktiki hüquqşünasları maraqlandıra biləcək məsələlər araşdırılmır – respondentlərin 19,1%-i və dərc olunan məqalələrin keyfiyyətinin aşağı olması – respondentlərin 11,2%-i. Praktiki hüquqşünasları onları maraqlandıra biləcək məqalələrlə və jurnallarla tanış etməyin vacibliyi jurnalların vahid elektron portalda oxuculara təklif edilməsinin məqsədəmüvafiq olduğunu vurğulayır. Qeyd etmək yerinə düşərdi ki, birinci monitorinq dövrünün ən nəzərəçarpan nailiyyətlərindən biri İnstitutun rəsmi saytında Azərbaycanda nəşr olunan hüquq jurnallarının əlaqə vasitələrinin vahid platformada cəmləşdirilməsi oldu. Bu da, öz növbəsində, oxucuların və məqalə dərc etmək istəyən müəlliflərin həmin jurnallara çıxışını asanlaşdırır. Bununla yanaşı, jurnalların keyfiyyətinin artırılması hədəfinə çatmaq üçün İnstitut "Hüquq sahəsində elmi məqalələrin tərtib olunmasına dair Qaydalar"ı geniş ictimaiyyətə təqdim etmişdir[6]. Digər bir önəmli yenilik, Hüquq və İnsan Haqları İnstitutu tərəfindən hüquq jurnalları üzrə vahid axtarış bazasının yaradılması olmuşdur. 5 mart 2025-ci il tarixə bu elektron bazada 18 jurnalda dərc edilmiş 1027 məqalə yer almışdır.

## 1. Metodologiya

Monitorinqin ümumi məqsədi ölkəmizdə nəşr edilən hüquq jurnalları barədə hüquqşünasların fikir, təklif və iradlarını bir araya toplamaqdan ibarətdir.

Monitorinqin uzunmüddətli məqsədi hüququn ayrı-ayrı sahələri üzrə, o cümlədən insan hüquq və azadlıqları sahəsində elmi-tədqiqat potensialının artırılması və hüquq nəşrlərinin yayımının dəstəklənməsindən ibarətdir.

---

[5] "İnjuria" və "Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalları bərabər səs topladığına görə eyni pillədə qərarlaşmışdır.

[6] https://lhri.az/az/articles/huquq-sah-sind-elmi-m-qal-l-rin-t-rtib-olunmasina-dair-qaydalar

Monitorinq Google Form üzərindən elektron sorğular vasitəsilə həyata keçirilib. Sorğu barədə məlumatlar və sorğunun linkləri İnstitutun saytında və facebook hesabında dərc edilib.

Birinci monitorinq dövrü ilə müqayisədə respondentlərin sayında artım müşahidə olunur (əvvəlki monitorinqdə 109 hüquqşünas və 13 jurnal iştirak etmişdir). Hüquqşünaslar üçün sorğuda 151, jurnallar üçün sorğuda ümumilikdə 18 respondent iştirak edib. 2025-ci ilin aprel ayında hüquq sahəsində məqalə dərc edən jurnallarla əlaqədar hüquqşünaslar və hüquqa dair məqalə qəbul edən jurnallar arasında monitorinqin nəticələrinə həsr olunacaq ikinci dəyirmi masa keçirilməsi planlaşdırılır. Hüquq jurnallarının təsisçilərinin, baş redaktorlarının və hüquqşünasların iştirakı ilə keçirilən tədbirdə hüquq sahəsində məqalə dərc edən jurnallarla bağlı mövcud vəziyyətin keçən monitorinq dövrü ilə müqayisəli geniş təhlili və bu sahədə işlərin yaxşılaşdırılması üçün təkliflər irəli sürülmüşdür.

Monitorinqdə hüquqşünasların təcrübəsi, hüquq jurnallarında dərc olunan məqalələrin oxunması və yazılması vəziyyəti, hüquq jurnalları ilə bağlı problemlər və s. təhlil olunur.

Monitorinq 6 fevral – 20 fevral 2025-ci il tarixləri arasındakı dövrü əhatə edir.

## 2. Hüquq sahəsində məqalə dərc edən jurnallarla əlaqədar hüquqşünaslar arasında keçirilən sorğunun nəticələri

### 2.1. Hüquqşünas kimi təcrübəniz nə qədərdir?

Sorğuda 151 nəfər hüquqşünas iştirak edib. Bu dəfə sorğuda iştirak edənlərin böyük qismini hüquqşünas kimi 5 ildən az iş təcrübəsi olan şəxslər təşkil etmişdir. Bu da, öz növbəsində, sorğuya cəlb olunan şəxslərin karyeralarının başlanğıcında elmi yeniliklərə açıq olmaları barədə fikir formalaşdırır. Lakin 6-15 il iş təcrübəsi olan respondentlərin (31,6%) və 16 və daha çox il iş təcrübəsi olan respondentlərin də faiz nisbəti (32,2%) az deyil. Ümumilikdə, respondentlərin kateqoriyalar üzrə bölgüsü, demək olar ki, bərabərdir. Bu da onu deməyə əsas verir ki, hazırkı monitorinq jurnalların vəziyyəti ilə bağlı həm gənc hüquqşünasların, həm də böyük təcrübəyə malik mütəxəssislərin dolğun fikirlərini öyrənməyə şərait yaradır.

| | | |
|---|---|---|
| • 0-5 il | 55 | 36,2 % |
| • 6-15 il | 48 | 31,6, % |
| • 15 il və daha çox | 49 | 32,2 % |
| **Cəmi** | **152** | |



## 2.2. Yaşınız

Sorğuda iştirakla bağlı yaş məhdudiyyəti tətbiq olunmayıb. Sorğu iştirakçılarının 35 və 55 yaşadək olan iştirakçıları sayca bir-birinə çox yaxındır və əsasən, bərabərlik təşkil edir.

| | | |
|---|---|---|
| • 18-35 yaş | 75 | 49,3 % |
| • 36-55 yaş | 71 | 46,8 % |
| • 56 yaş və daha çox | 6 | 3,9 % |
| **Cəmi** | **152** | |




## 2.3. Vəzifəniz

Sorğuda hakimlər, vəkillər, tədqiqatçılar, prokurorlar, hüquq fakültəsi tələbələri və digər sahədə çalışan hüquqşünaslar iştirak ediblər. Ən çox iştirakçı vəkillər və digər sahələrdə çalışan hüquqşünaslar arasında müşahidə olunub. Sorğu iştirakçılarının 30,3%-ni vəkillər, 29,6%-ni digər sahədə çalışan hüquqşünaslar, 23%-ni hüquq tədqiqatçısı alimlər və 16,4%-ni hüquq fakültəsinin tələbələri təşkil edib.



## 2.4. Siz Azərbaycanın hüquq jurnallarında dərc edilən məqalələri oxuyursunuzmu?

Son dövrlərdə ictimai fikirdə jurnallara olan marağın aşağı olması və onların oxunmaması barədə fikirlər formalaşıb. Bu məsələnin araşdırılması üçün sorğuya məhz belə bir sual daxil edilmişdi. Respondentlərin 70,4%-i Azərbaycanın hüquq jurnallarında dərc edilən məqalələri oxuduqlarını bildiriblər. Bu göstəricinin özü hüquq sahəsində dərc olunan məqalələrə və hüquq jurnallarına olan marağı ifadə edir. Belə ki, keçənilki monitorinq nəticələri ilə hazırkı statistik məlumat arasında böyük fərq müəyyən edilməmişdir (birinci monitorinq dövründə respondentlərin 71.6%-i yerli jurnallarda dərc edilən məqalələri oxuduqlarını bildirmişdir). Sorğu iştirakçılarının 29,6%-nin (əvvəlki dövrdə respondentlərin 28,4%-i) bu məqalələri oxumaması, əsasən, həmin yazıların formal xarakter daşıması (19,7%), praktiki hüquqşünasları maraqlandıra biləcək məsələlərin məqalələrdə təhlil olunmaması (19,1%) və bəzi hallarda məqalələrin keyfiyyətinin aşağı olması (11,2%) ilə əlaqələndirilir.

| | | | |
|---|---|---|---|
| a) | Bəli | 107 | 70,4 % |
| b) | Xeyr | 45 | 29,6 % |
| | **Cəmi** | **152** | |




## 2.5. Siz daha çox hansı dildə məqalə oxumağa üstünlük verirsiniz?

Respondentlərin 60,5%-i azərbaycanca hüquqi məqalə oxumağa üstünlük verdiyi halda, 18,4% respondent ingiliscə, 14,5% respondent isə rusca məqalə oxumağa üstünlük verdiyini bildirdi.

## 2.6. Ən çox oxuduğunuz 5 hüquq jurnalı hansılardır?

Respondentlərə təqdim olunan 23 hüquq jurnalından hər bir hüquqşünasın ən çox oxuduğu 5 jurnal barədə fikirləri öyrənilib. Respondentlərin ən çox oxuduğu jurnallar sırasında birinci yeri 57,2% göstərici ilə “Azərbaycan vəkili” jurnalı tutur. Ən çox oxunan jurnalların sırasındakı ilk beşlikdə “Qanun” jurnalı öz mövqelərini saxlayır. Bu il respondentlərin 38,8%-nin səsini qazanaraq ən çox oxunan ikinci jurnal olmuşdur. Eyni zamanda, onu da qeyd etməliyik ki, “Qanun” jurnalı ödənişli jurnaldır və buna baxmayaraq, hüquqşünaslar pulsuz jurnallarla müqayisədə ona daha çox üstünlük verirlər. Ümumilikdə isə, AAK-ın siyahısında hüquq elmləri sahəsi üzrə yer alan 19 jurnaldan[7] 10-u sorğuda iştirak edən hüquqşünaslar tərəfindən ən az oxunan jurnallar sırasındadır.

[7] https://aak.gov.az/single/422

Respondentlər tərəfindən **ən çox oxunan 5[8] hüquq jurnalı** sırasında AAK-ın siyahısında olan 3 jurnal - “Qanun” jurnalı, “Azərbaycan Hüquq Jurnalı” və “Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalı yer alır ki, bu da birinci hesabat dövrü ilə müqayisədə aşkar irəliləyişin göstəricisidir. Belə ki, birinci monitorinq dövründə ilk beşlikdə AAK-ın siyahısında olan jurnallardan yalnız biri yer almışdır. Sorğuda iştirak edənlərin rəyinə əsasən ən çox oxunan hüquq jurnalları aşağıdakılardır:

1. “Azərbaycan vəkili” elmi-praktiki hüquq jurnalı (57,2%);
2. “Qanun” elmi hüquq jurnalı (38,8%);
3. “Azərbaycan Hüquq Jurnalı” (37,5%);
4. “Baku State University Law Review” jurnalı (27,6%);
5. “Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalı (19,7%);
6. “İnjuria” jurnalı (19,7%).




Statistikadan da göründüyü kimi, “Azərbaycan Prokurorluğu” jurnalı, “Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalı, “Azərbaycan Hüquq Jurnalı”, “Azərbaycan vəkili” jurnalında nəzərəçarpan irəliləyiş qeyd edilmişdir. Respondentlər arasında yalnız “Qanunçuluq” jurnalının oxucularının sayında kəskin azalma müşahidə olunur (32 nəfərdən 17-yə). Yerdə qalan jurnalların oxucularının sayındakı azalma və ya artım cüzi səviyyədədir.

[8] “İnjuria” və "Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalları bərabər səs topladığına görə eyni pillədə qərarlaşmışdır.

### 2.7. Azərbaycanda nəşr edilən hüquq jurnallarına məqalə yazmaqda maraqlısınızmı?

Respondentlərin 73%-i Azərbaycanda nəşr olunan hüquq jurnallarına məqalə yazmaqda maraqlı olduqlarını bildiriblər. Bu göstərici hüquq sahəsində dərc olunan məqalələrə və hüquq jurnallarına olan marağı ifadə edir. 27% iştirakçı isə məqalə yazmaqda maraqlı olmadıqlarını qeyd edib. Bunun da əsas səbəbi kimi bəzi hallarda jurnalların reytinqinin aşağı olması göstərilib. Hazırkı göstəricilər birinci monitorinq dövrü üzrə faiz nisbəti ilə demək olar ki, eynilik təşkil edir (2024-cü ildə respondentlərin 70%-i məqalə yazmaqda maraqlı olduqlarını bildirmişdilər).

| | | | |
|---|---|---|---|
| a) | Bəli | 111 | 73 % |
| b) | Xeyr | 41 | 27 % |
| | **Cəmi** | **152** | |




### 2.8. Təqdim etdiyiniz məqaləni jurnal qəbul edibmi?

Monitorinq zamanı hüquq jurnallarında məqalələrin qəbulu ilə bağlı vəziyyət də araşdırılıb. Respondentlərin 53,3%-i jurnallara bununla əlaqədar müraciət etmədiklərini, 46,1%-i isə jurnalların onların məqalələrini qəbul etdiklərini bildirib. Birinci monitorinq dövrü ilə müqayisədə respondentlərin sayının artdığını və məqalənin çapından imtina alan şəxslərin sayının eyni qalması (1 nəfər) onu göstərir ki, hələ də Azərbaycan hüquq jurnallarında məqalə çap etdirmək olduqca asandır, rəqabət yüksək deyil və jurnalların qoyduqları tələblər yetərincə deyil. Müqayisəli statistika ilə aşağıdakı diaqramdan tanış ola bilərsiniz:



### 2.9. Hüquq jurnalları ilə əlaqədar hansı problemləri qeyd edə bilərsiniz?

"Hüquq jurnalları ilə əlaqədar hansı problemlərin olması" sualına respondentlərin 40,8%-i jurnalları internet resurslarında asanlıqla tapa bilmədiklərini bildirirlər. Digər bir problem kimi yazılan məqalələrin keyfiyyətinin aşağı olması göstərilir. Respondentlərin 28,9%-i bu fikirdədir. Respondentlərin 7,9%-i digər problemlərlə yanaşı, jurnalların baha olmasını da qeyd edir.




Hazırkı cavablar maraqlı və paradoksal tendensiyaları üzə çıxarıb. Belə ki, ilk monitorinq dövründə respondentlərin 43 nəfəri jurnalları internet resurslarında tapmaqda çətinlik çəkdiklərini bildirdikləri halda, cari monitorinqdə iştirak edən şəxslərdən 62 nəfər həmin fikri səsləndirib. Maraqlıdır ki, İnstitutun öz saytında Azərbaycanda nəşr edilən hüquq jurnallarını bir mənbədə toplanması, hələ ki, problemə öz səmərəli töhfəsini verməmişdir. Buna səbəb kimi jurnalların vahid bazası barədə hüquq ictimaiyyətinin az məlumatlı olmasını göstərmək olar.

Bununla yanaşı, respondentlər arasında yazılan məqalələrin keyfiyyətinin aşağı olması ilə bağlı fikrin populyar olması (2024-cü ildə 43 nəfərdən 2025-ci ildə 62 nəfərə) ona dəlalət edə bilər ki, İnstitutun hazırladığı və öz rəsmi saytında yayımladığı "Hüquq sahəsində elmi məqalələrin tərtib olunmasına dair Qaydalar"dan bir çox yerli jurnallar faydalanmamışdır. Qeyd etmək lazımdır ki, həmin Qaydalar nümunəvi xarakter daşıyır və jurnallardan məcburi surətdə tətbiqi tələb edilmir.

Bununla belə, yuxarıda göstərilən hər iki məsələ ilə bağlı vəziyyəti yaxşılaşdırmaq üçün tövsiyə olunur ki, İnstitut sırf elmi məqalələrin yazılmasına və jurnalların keyfiyyətinin artırılmasına dair məlumat sessiyaları təşkil etsin və tələbələr və dövlət orqanlarının nümayəndələri olan hüquqşünaslara keçirdiyi fərqli mövzulardakı təlimlərdə hüquq jurnallarının bazası ilə bağlı məlumat paylaşsın.

**2.10. Sizi maraqlandıran mövzuda məqalə axtarmaq üçün hansı mənbələrdən istifadə edirsiniz?**

Respondentlərin 36,8%-i onları maraqlandıran məqalələri axtarmaq üçün beynəlxalq bazalardan, 33,6%-i jurnalların saytlarından, 26,3%-i İnstitutun səhifəsində yerləşən bazadan, 20,4%-i xəbər saytlarından, 24,3%-i isə digər mənbələrdən istifadə etdiklərini bildirmişlər.

Göründüyü kimi, hətta axtarış məsələsində respondentlər daha çox beynəlxalq bazalara üstünlük verirlər. Bununla yanaşı, ikinci yerdə qərarlaşan "jurnalların saytları" cavabı axtarışın bir mənbə ilə məhdudlaşmasına dəlalət edə bilər. Bu da, öz növbəsində, axtarışın hərtərəfli aparılmasına problem yarada bilər.

Təqdirəlayiq haldır ki, bir ildən az fəaliyyət göstərməsinə baxmayaraq, İnstitutun səhifəsində yerləşən bazadan istifadə edən respondentlərin faiz nisbəti 26,3% təşkil etmişdir. Saytda göstərilən jurnallarda çap olunan məqalələrin onlayn versiyalarının axtarışını asanlaşdırmaq üçün hər bir məqalə ayrılıqda sistemə yerləşdirilmiş və axtarış funksiyası əlavə edilmişdir. Bu da, öz növbəsində, ayrı-ayrı jurnalların saytında axtarış aparılarkən sərf olunan vaxtın azaldılmasına və daha səmərəli istifadəsinə imkan yaradır və axtarış prosesini asanlaşdırır. Aşağıda respondentlərin verilən cavablar üzrə say bölgüsünü diqqətinizə çatdırırıq:



**2.11. Məqalə yazarkən hansı qaydalardan istifadə edirsiniz?**

Bu suala cavab aşağıdakı kimidir:




58 nəfər (38,2%) məqalə çapı üçün müraciət etdiyi jurnalın öz qaydalarından istifadə edir. Bu da məntiqli yanaşmadır, çünki hər bir jurnalın texniki tələbləri fərqli ola bilər. Bununla yanaşı, jurnalın öz qaydalarından savayı digər mənbələrə – xaricdə qəbul edilmiş qaydalar (respondentlərin 11,2%-i), İnstitutun hazırladığı "Hüquq sahəsində elmi məqalələrin tərtib olunmasına dair Qaydalar" (respondentlərin 10,5%-i) – istinad yerli jurnalların qaydalarının məqalənin hazırlanması ilə bağlı bütün yarana biləcək suallara cavab vermədiyinin göstəricisi ola bilər.

**2.12. Hüquq və İnsan Haqları İnstitutunun veb-səhifəsində yerləşən "Hüquq jurnallarının vahid elektron bazası"ndan istifadə edirsinizmi?**

Maraqlıdır ki, respondentlərin 50,7%-i həmin bazadan istifadə etdiyini bildirdiyi halda, həmin respondentlərin yalnız 26,3%-i İnstitutun səhifəsində yerləşən bazaya onları maraqlandıran mövzuda məqalə axtarmaq üçün müraciət etdiyini qeyd etmişdir.[9]

| | | | |
|---|---|---|---|
| a) | Bəli | | 50,7 % |
| b) | Xeyr | | 49,3 % |
| | **Cəmi** | **152** | |

[9] Daha ətraflı məlumat üçün bax: sual 2.10

**2.13. Məqalələri hansı plagiat proqramı ilə yoxlayırsınız?**

Respondentlərin yarıdan çoxu (69,1%-i) məqalələrini plagiat proqramı ilə yoxlamadığını bildirdilər. Bununla yanaşı, digər respondentlər istifadə etdikləri bəzi plagiat yoxlayıcı proqramların adlarını bizimlə bölüşmüşlər:

| № | Plagiat yoxlayıcı proqramın adı | Onlardan istifadə edən respondentlərin sayı |
|---|---|---|
| 1 | antiplagiarism.net | 2 |
| 2 | turnitin.com | 2 |
| 3 | strikeplagiarism.com | 3 |
| 4 | grammarly.com | 1 |
| 5 | İnthenticate.com | 1 |
| 6 | plagiarisma.net | 1 |

**2.14. Hüquq jurnallarına dair hansı təklifləriniz var?**

110 respondent (72,4%) tərəfindən ən çox verilən ümumiləşdirilmiş təklifləri nisbi olaraq üç kateqoriyaya bölmək olar: Keyfiyyət; əlçatanlıq; və aktuallıq.

Həmin kateqoriyalar üzrə ümumiləşdirilmiş təklifləri diqqətinizə çatdırırıq:

| | **Keyfiyyət** | **Əlçatanlıq** | **Aktuallıq** |
|---|---|---|---|
| 1 | Məqalə qəbulu ilə bağlı minimal tələblərin sərtləşdirilməsi | Jurnalların məqalələrə bölünərək onlayn mənbələrdə paylaşılması | Çap üçün qəbul olunan məqalələrdə praktiki məsələlərə daha çox yer verilməsi |
| 2 | Formallıqdan, psevdo-elmdən uzaqlaşma | Müəllifin adı, məqalənin adı və açar sözlər daxil edilən axtarış sisteminin tətbiqi | Diqqət çəkən başlıqlardan istifadə |
| 3 | İnstitutun saytında yerləşdirilən “Hüquq sahəsində elmi məqalələrin tərtib olunmasına dair Qaydalar” əsasında jurnalların yeni qaydalarının qəbulu | Məqalələrə DOI nömrələrinin verilməsi | Şablonlaşmış mövzu yerinə yeniliyə önəm verilməsi |
| 4 | Beynəlxalq indeksləşmə bazalarına daxil olma | Çap olunan jurnal buraxılışlarını (saylarını) vəkil bürolarına paylamaq | Rəsmi xarakter daşımayan konfransların təşkili |

| | | | |
|---|---|---|---|
| 5 | Keyfiyyətli redaksiya heyətinin yaradılması | Jurnalların elektron formada mövcud olması | Hüquq cəmiyyətinin problemini əks etdirən məqalələrin çapı |
| 6 | Məqalə qəbulu zamanı ciddi yoxlanış qaydalarının tətbiqinin məzmunun keyfiyyətinə birbaşa təsiri | | Gənclər üçün məqalə müsabiqəsinin təşkili |
| 7 | İstinad qaydalarının dəyişdirilməsi (misal üçün, 10 mənbəyə istinad əvəzinə aktual olan 3 məqaləyə istinad) | Qiymət baxımından əlçatan olma | Nəzəri-praktiki məsələləri əks etdirən aktual məqalələrin dərcinin artırılması |
| 8 | Plagiat yoxlanışı ilə bağlı müəllifə yardım etmə | Hüquqşünaslar arasında jurnallar və məqalə çapı barədə məlumatın geniş yayılması üçün seminar, vebinarların keçirilməsi | Praktiki problemlərin təhlilinə yer verilməsi |
| 9 | Müəlliflərə qonorarın verilməsi | Araşdırılması zəruri olan mövzuların hüquqi ictimaiyyətə açıqlanması | |
| 10 | Ciddi plagiat yoxlayıcı proqramlardan istifadə | Vahid elektron portalın, reyestrin yaradılması | |
| 11 | Yazı üslubunun dəyişilməsi: praktiki əsaslandırma nümunələri olmalı | Jurnalların əvvəlki buraxılışlarının sayta PDF formatda yerləşdirilməsi | |
| 12 | Hüquqşünaslara maarifləndirici sessiyalar keçirilsin | Məqalə qəbulu elanının (call for papers) sosial şəbəkələrdə paylaşılması | |
| 13 | Beynəlxalq standartlara uyğunlaşma (məqalə yazılma qaydası) | Məqalə çapının ödənişsiz olması | |
| 14 | Peer-review sisteminin gücləndirilməsi | Jurnalların marketinqinin gücləndirilməsi | |
| 15 | Xarici ölkələrin jurnalları ilə qarşılıqlı fəaliyyət | Abunəlik əsasında jurnal satışının təşkili | |
| 16 | Jurnalların ödənişli elektron bazasını yaratmaq | Jurnal əldə etmək imkanının genişləndirilməsi | |
| 17 | Məqalələrə qoyulan minimal səhifə sayının artırılması | Hər bir jurnalın internet səhifəsinin yaradılması | |

| | | | |
|---|---|---|---|
| 18 | Xarici dildə qəbul olunan məqalələrin sayının artırılması | Ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq, dəyirmi masalar və s. təşkili | |
| 19 | Senzuranın aradan qaldırılması (dövlət qurumları tərəfindən pozuntular barədə yazı imkanı) | Beynəlxalq databazalarla əməkdaşlıq | |
| 20 | Yeni jurnalların təsisi | Hüquq jurnalları olan bazalara çıxış imkanı | |

## 3. Hüquq sahəsində məqalə dərc edən jurnallar arasında sorğu

### 3.1. Jurnalın adı

Sorğuda iştirak etmək üçün 23 hüquq jurnalına müvafiq müşayiət məktubu ilə sorğunun linkləri göndərilib. Sorğunu aşağıdakı 18 jurnal cavablandırıb:

1. “Elmi məcmuələr” jurnalı;
2. “Azərbaycan vəkili" elmi-praktiki hüquq jurnalı;
3. “ELSA Azərbaycan Hüquq Jurnalı” (ELSA Azerbaijan Law Review);
4. “İnjuria” jurnalı;
5. “Azərbaycan Hüquq Jurnalı”;
6. “Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalı;
7. “Hüquqi müstəvi” jurnalı;
8. “Hüquqi Elmlər və Təhsil” jurnalı; Juridical Sciences and Education; Юридические науки и образование;
9. “Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı”;
10. “Gənc tədqiqatçı” jurnalı;
11. “Qanun” elmi hüquq jurnalı;
12. “Nəqliyyat hüququ” jurnalı;
13. “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı;
14. “Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri” jurnalı;
15. AMEA-nın “Sosial elmlər” jurnalı;
16. Naxçıvan Dövlət Universitetinin “Elmi əsərlər” jurnalı;
17. DİN-in “Polis Akademiyasının Elmi Xəbərləri” jurnalı;
18. AMEA-nın “Məruzələr” jurnalı.

### 3.2. Jurnalın təsis edildiyi il

Sorğuda iştirak edən 2 jurnal – “Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri” və “Qanunçuluq” jurnalları nəzərəçarpacaq tarixə malikdir (1960-1966). Bu jurnalların 60 illik təcrübəsi var. Ümumilikdə, 18 jurnaldan 4-ü 2000-ci ilə qədər, 14 jurnal isə 2000-ci ildən sonrakı dövrdə təsis olunub. Bu barədə məlumatlar aşağıdakı cədvəldə verilir:

| S/n | Təsis edildiyi il | Jurnalın adı |
|---|---|---|
| 1. | 1945 | AMEA-nın "Məruzələr" jurnalı |
| 2. | 1960 | "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" jurnalı |
| 3. | 1992 | "Qanun" elmi hüquq jurnalı |
| 4. | 1997 | Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalı |
| 5. | 2000 | "Elmi məcmuə" jurnalı |
| 6. | 2002 | "Azərbaycan Hüquq Jurnalı" |
| 7. | 2003 | "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı |
| 8. | 2003 | "Hüquqi elmlər və təhsil" jurnalı; Juridical Sciences and Education; Юридические науки и образование |
| 9. | 2004 | "Nəqliyyat hüququ" jurnalı |
| 10. | 2005 | "Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalı |
| 11. | 2012 | DİN-in "Polis Akademiyasının Elmi Xəbərləri" jurnalı |
| 12. | 2013 | "Azərbaycan vəkili" elmi-praktiki hüquq jurnalı |
| 13. | 2015 | "Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı" |
| 14. | 2015 | "Gənc tədqiqatçı" jurnalı |
| 15. | 2016 | "ELSA Azərbaycan Hüquq Jurnalı" (ELSA Azerbaijan Law Review) |
| 16. | 2019 | AMEA-nın "Sosial elmlər" jurnalı |
| 17. | 2019 | "Hüquqi müstəvi" jurnalı |
| 18. | 2020 | "İnjuria" jurnalı |

### 3.3. Jurnalın dərc edilmə tezliyi

Sorğuda iştirak edən 138 jurnaldan 8-i rüblük (44,4%), 9 jurnal (50%) ilin müəyyən dövrlərində, 1 jurnal isə (5,6%) aylıq  nəşr olunur ("Qanun"  jurnalı).



### 3.4. Jurnal məqalələri hansı dillərdə qəbul edir?

Sorğuda iştirak edən jurnalların demək olar ki, əksəriyyəti Azərbaycan dili ilə yanaşı, digər dillərdə də məqalələr dərc edirlər. Rus dilində məqalə dərc edənlərin sayı isə sorğuda iştirak edənlərin 55,6%-ni təşkil edir. Məqalələrin qəbul edildiyi xarici dillər sırasında ikinci yeri ingilis dili tutur (sorğuda iştirak edən jurnalların 44,4%-i). Bir jurnal həm ingilis dili, həm də türk dilində məqalə qəbul etdiyini bildirmişdir.




### 3.5. Jurnal Ali Attestasiya Komissiyasının siyahısında yer alıbmı?

Sorğuda iştirak edən jurnallardan 13-ü AAK-ın siyahısında yer alır.




Keçənilki göstəricilərlə müqayisədə sorğuda iştirak edən jurnallar arasında AAK-ın siyahısında qeydə alınmış jurnalların payı 10,2 % artmışdır (62%-dən 72,2%-ə). Bu da öz növbəsində ölkədə nəşr olunan ən mötəbər jurnallarda müşahidə olunan tendensiyaları müəyyən və təhlil etməyə daha çox imkan yaradır.

### 3.6. Jurnalın veb-səhifəsi varmı?

Sorğuda iştirak edən 18 jurnaldan 17-sinin veb-səhifəsi var. 1 jurnalın isə ("ELSA Azərbaycan Hüquq Jurnalı") veb-səhifəsinin olmadığı qeyd edilir. İlkin monitorinq dövrü ilə müqayisədə veb-səhifəsi olmayan jurnalların faiz nisbəti azalmışdır (23%-dən 5,6%-ə düşmüşdür).




### 3.7. Jurnalın sosial media hesabları varmı?

Rəyi soruşulan 18 jurnaldan cəmi 7-sinin sosial media hesabları var. 6 jurnalın isə heç bir sosial media hesabı yoxdur. Maraqlı bir faktı vurğulamaq olar ki, ilkin monitorinq dövründə sorğuda iştirak etmiş 13 jurnalın 54%-də (say göstəricisi – 7) sosial media hesabları olduğu halda, hazırkı sorğuda iştirak edən 18 jurnalın cəmi 38,9%-nin sosial media hesabları mövcuddur. 3.5-ci bənddə qeyd olunan faktlar işığında (sorğu iştirakçıları arasında AAK-ın siyahısında göstərilən jurnalların sayının artımı) hazırkı sual AAK-ın siyahısında göstərilən nüfuzlu jurnallar barədə geniş hüquq ictimaiyyətinin digər jurnallarla müqayisədə az məlumatlı olmasının səbəbləri ilə bağlı mülahizə yürütməyə imkan yaradır. Belə ki, sorğuda iştirak edən hüquqşünasların verdiyi təkliflər sırasında məqalə qəbulu elanının sosial şəbəkələrdə paylaşılmasının və həmçinin jurnalların marketinqinin gücləndirilməsinin göstərilməsi jurnalın əlçatan olmasında sosial media hesablarının vacibliyini bir daha vurğulayır.



### 3.8. Jurnala çap üçün məqalə təqdim edilərkən plagiat olub-olmaması yoxlanılırmı?

Rəyi soruşulanların yalnız 66,7%-i məqalələr təqdim edilərkən plagiat yoxlamaya cəlb olunduğunu bildiriblər.




### 3.9. Jurnala məqalə qəbulu

Sorğuda iştirak edən jurnalların 83,3%-i məqalələri ödənişsiz qəbul etdiyini qeyd edir.



**3.10. Jurnalda çalışan əməkdaşların sayı?**

Bir çox jurnalda (18 jurnaldan 12-sində) çalışan əməkdaşların sayı 0-5 arasında dəyişir.




**3.11. Redaksiya heyəti ictimai əsaslarla çalışır?**

Bütün jurnallarda redaksiya heyətlərinin ictimai əsaslarla çalışdığı qeyd olunur.

**3.12. Jurnalınız beynəlxalq reytinq və ya databazada yer alırmı:**

Sorğuda iştirak edən 8 jurnal (44,4%) beynəlxalq databazada yer aldığını bildirmişdir. Bunlar aşağıdakılardır:

1. “Elmi məcmuələr” jurnalı;
2. "Azərbaycan vəkili” elmi-praktiki hüquq jurnalı;
3. “Hüquqi elmlər və təhsil” jurnalı; Juridical Sciences and Education; Юридические науки и образование;
4. “Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı”;
5. “Nəqliyyat hüququ” jurnalı;
6. “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı;
7. Naxçıvan Dövlət Universitetinin “Elmi əsərlər” jurnalı;
8. DİN-in “Polis Akademiyasının Elmi Xəbərləri” jurnalı.

**3.13. Jurnalın fəaliyyətində rastlaşılan əsas problemlər**

İlk sırada çap üçün maliyyə vəsaitlərinin azlığı (38,9%) gəlir. İkinci yerdə göndərilən məqalələrin standartlara cavab verməməsi problemi (27,8%) qərarlaşır. Daha sonra isə yenə də maliyyə problemləri göstərilmişdir, lakin bu dəfə həmin problemlər jurnalın təbliği ilə bağlı idi (jurnalın təbliği üçün maliyyə çatışmazlığı – 11,1%).

**3.14. Hüquq və İnsan Haqları İnstitutunun veb-səhifəsində yerləşən "Hüquq jurnallarının vahid elektron bazası"ndan istifadə edirsinizmi?**

Sorğuda iştirak edən jurnalların əksəriyyəti (83,3%-i, yəni 15 jurnal) "Hüquq jurnallarının vahid elektron bazası"ndan istifadə etdiyini bildirmişdir.

| S/N | Jurnalın adı | Abunə haqda məlumat |
|---|---|---|
| 1. | DİN-in "Polis Akademiyasının Elmi Xəbərləri" jurnalı | Var (5000+) |
| 2. | "İnjuria" jurnalı | 2000-dən çox |
| 3. | "Azərbaycan vəkili" elmi-praktiki hüquq jurnalı | Vəkillər Kollegiyasının üzvləri |
| 4. | "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı | var (500) |
| 5. | "Elmi məcmuələr" jurnalı | var (100) |
| 6. | "Qanun" elmi hüquq jurnalı | var (32) |
| 7. | "ELSA Azərbaycan Hüquq Jurnalı" | var (9) |
| 8. | "Hüquqi müstəvi" jurnalı | var (5) |
| 9. | "Nəqliyyat hüququ" jurnalı | var (3) |
| 10. | "Azərbaycan Hüquq Jurnalı" | var |
| 11. | "Hüquqi elmlər və təhsil" jurnalı; Juridical Sciences and Education; Юридические науки и образование | yoxdur |
| 12. | "Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı" | yoxdur |
| 13. | "Gənc tədqiqatçı" jurnalı | yoxdur |
| 14. | "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" jurnalı | yoxdur |
| 15. | "Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalı | yoxdur |
| 16. | AMEA-nın "Sosial elmlər" jurnalı | yoxdur |
| 17. | Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalı | yoxdur |
| 18. | AMEA-nın "Məruzələr" jurnalı | yoxdur |

### 3.15. Jurnalın hər hansı buraxılışının elektron versiyasının oxunma və ya yüklənmə sayı

Cavablardan məlum olur ki, rəyi soruşulan 18 jurnaldan cəmi 7-sinin sosial media hesabları var. 6 jurnalın isə heç bir sosial media hesabı yoxdur. Ən çox oxunma DİN-in "Polis Akademiyasının Elmi Xəbərləri"ndə (6000+) və "Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı"nda (500+) qeydə alınıb.

| S/N | Jurnalın adı | Oxunma sayı |
|---|---|---|
| 1. | "Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı" | 500+ |
| 2. | "Azərbaycan Hüquq Jurnalı" | Çoxdur |
| 3. | "Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalı | Çoxdur |
| 4. | "Azərbaycan vəkili" elmi-praktiki hüquq jurnalı | var |
| 5. | "İnjuria" jurnalı | Elektron versiya bizim sosial hesablarımızda hamısı dərc edilir |
| 6. | "Hüquqi müstəvi" jurnalı | 12 |
| 7. | "Nəqliyyat hüququ" jurnalı | 15 |
| 8. | "Elmi məcmuə" jurnalı | Məlumat yoxdur |
| 9. | "Qanun" elmi hüquq jurnalı | 30 yükləmə |
| 10. | "Gənc tədqiqatçı" jurnalı | 300+ |
| 11. | "Hüquqi elmlər və təhsil" jurnalı; Juridical Sciences and Education; Юридические науки и образование | Hesablanmır |
| 12. | AMEA-nın "Sosial elmlər" jurnalı | Saytda sayı görmək funksiyası yoxdur |
| 13. | Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalı | 50 |
| 14. | "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" jurnalı | - |
| 15. | DİN-in "Polis Akademiyasının Elmi Xəbərləri" jurnalı | 6000+ |
| 16. | AMEA-nın "Məruzələr" jurnalı | Kifayət qədər var. Jurnalın saytının statistikası var. |
| 17. | "ELSA Azerbaijan LAW REVIEW" jurnalı | Son buraxılış 200 |
| 18. | "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı | - |

### 3.16. Jurnalın satışda olan qiyməti (əgər satılırsa)

Sorğuda iştirak edən jurnallardan yalnız 2-si ödənişlidir, digər jurnalların hamısı ödənişsiz qaydada paylanılır. Ən bahalı jurnal (“Hüquqi elmlər və təhsil” jurnalı) 20 manata satılır.

| S/N | Jurnalın adı | Jurnalın qiyməti |
|---|---|---|
| 1. | “Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı” | Ödənişsiz |
| 2. | “Azərbaycan Hüquq Jurnalı” | Ödənişsiz |
| 3. | “Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalı | Ödənişsiz |
| 4. | “Azərbaycan vəkili” elmi-praktiki hüquq jurnalı | Ödənişsiz |
| 5. | “İnjuria” jurnalı | Ödənişsiz |
| 6. | “Hüquqi müstəvi” jurnalı | **Ödənişli** |
| 7. | “Nəqliyyat hüququ” jurnalı | **Ödənişli** |
| 8. | “Elmi məcmuə” jurnalı | Ödənişsiz |
| 9. | “Qanun” elmi hüquq jurnalı | **Ödənişli** |
| 10. | “Gənc tədqiqatçı” jurnalı | Ödənişsiz |
| 11. | “Hüquqi elmlər və təhsil” jurnalı; Juridical Sciences and Education; Юридические науки и образование | Ödənişsiz |
| 12. | AMEA-nın “Sosial elmlər” jurnalı | Ödənişsiz |
| 13. | Naxçıvan Dövlət Universitetinin “Elmi əsərlər” jurnalı | Ödənişsiz |
| 14. | “Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri” jurnalı | Ödənişsiz |
| 15. | DİN-in “Polis Akademiyasının Elmi Xəbərləri” jurnalı | Ödənişsiz |
| 16. | AMEA-nın “Məruzələr” jurnalı | Ödənişsiz |
| 17. | “ELSA Azerbaijan LAW REVIEW” jurnalı | Ödənişsiz |
| 18. | “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı | Ödənişsiz |

### 3.17. Jurnalınız beynəlxalq reytinq və ya databazada yer alıbmı?

Sorğuda iştirak edən 10 jurnal beynəlxalq databazada mövcud deyil. Jurnalların beynəlxalq reytinq və databazada yer alması 8 jurnalda müşahidə olunub:

- “Azərbaycan vəkili” elmi-praktiki hüquq jurnalı;
- “Hüquqi elmlər və təhsil” jurnalı;
- “Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalı”;
- “Nəqliyyat hüququ” jurnalı;
- “Elmi məcmuə” jurnalı;
- Naxçıvan Dövlət Universitetinin “Elmi əsərlər” jurnalı;
- DİN-in “Polis Akademiyasının Elmi Xəbərləri” jurnalı
- “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı

| | | | |
|---|---|---|---|
| a) | Bəli | 8 | 44,4 % |
| b) | Xeyr | 10 | 55,6% |
| | **Cəmi** | **18** | 100% |

### 3.18. Jurnalın fəaliyyətində rastlaşılan əsas problemlər

Jurnalların fəaliyyətində rastlaşılan əsas problemlər kimi çap üçün maliyyə vəsaitlərinin azlığı və dərc olunması üçün göndərilən məqalələrin standartlara cavab verməməsi qeyd olunur.



## Monitorinqin nəticələrinin qısa xülasəsi

- Hüquq və İnsan Haqları İnstitutu tərəfindən yaradılmış Hüquq jurnallarının vahid elektron bazasının faydaları qeyd olunur.
- Hüquq sahəsində dərc olunan məqalələrə hüquqşünaslar tərəfindən böyük maraq göstərildiyi müşahidə olunur.
- Jurnallarda dərc edilən məqalələrin keyfiyyətinin aşağı olması göstərilir.
- Jurnallarda çap olunmuş məqaləyə istinadlara görə qonorarın verilməsi təklif olunur.
- Elmi məqalələrin hazırlanmasında beynəlxalq təcrübənin tətbiq edilməsi və bununla əlaqədar gənc hüquqşünaslar üçün təlimlərin keçirilməsi təklif olunur.
- Hüquq jurnallarının beynəlxalq reytinqinin yüksəldilməsi üçün zəruri addımların atılmasının vacibliyi qeyd olunur.
- Məqalə qəbulu ilə bağlı elanların saytlarda, sosial media səhifələrində paylaşılması təklif olunur.
- Praktikada rastlaşılan problemlərlə bağlı məqalələrin çapına üstünlük vermək təklif olunur.
- Bəzi jurnalların sosial media hesabları mövcud deyil.
- Əksər jurnallar beynəlxalq databazada yer almır.
- Jurnallara göndərilən məqalələrin standartlara uyğun olmadığı bildirilir.
- Jurnalların nəşri üçün maliyyə vəsaitinin çatışmazlığı qeyd olunur.

## Hüquq sahəsində məqalə dərc edən jurnalların SİYAHISI

| S/n | Jurnalın adı | Telefonu | E-mail ünvanı və internet səhifəsi |
|---|---|---|---|
| 1. | “Qanun” elmi hüquq jurnalı | (012) 431 16 62<br>(055) 695 27 97 | qanunhuquqjurnali@gmail.com<br>https://qanunjurnali.az/ |
| 2. | “Azərbaycan vəkili” elmi-praktiki hüquq jurnalı | (012) 594 08 70<br>(050) 266 77 99 | office@barassociation.az<br>https://barassociation.az/journal |
| 3. | “Baku State University Law Review” jurnalı | (055) 394 00 35 | lawreview@bsulawss.org<br>www.facebook.com/bsulr<br>https://lr.bsulawss.org/ |
| 4. | “Qanunçuluq” jurnalı | (012)510 10 01<br>(012) 537 06 40 | press@justice.gov.az<br>https://justice.gov.az/papers?category_id=32 |
| 5. | “İnjuria” jurnalı | (012) 404 13 52 | info@injuria.az<br>www.facebook.com/injuria.az<br>https://www.injuria.az/category/arxiv |
| 6. | “ELSA Azerbaijan Law Review” jurnalı | (070) 359 59 11 | lawreview@az.elsa.org<br>www.facebook.com/<br>ELSAAzerbaijanLawReview<br>https://issuu.com/elsaazerbaijan |
| 7. | "Polis Akademiyasının Elmi Xəbərləri" jurnalı | (012) 454 34 57<br>(012) 554 99 84 | policeacademy@pa.edu.az<br>https://www.pa.edu.az/?/az/menu/100/ |
| 8. | “Azərbaycan Hüquq Jurnalı” | (012) 538 31 10<br>(050) 331 31 66 | al.amir.ibr@gmail.com<br>turgay@legcon.org<br>https://ahj.az/az/ |
| 9. | “Bakı Universitetinin xəbərləri (sosial-siyasi elmlər seriyası)” jurnalı | (012) 538 87 39<br>(012) 538 50 16 | bdumetbee@gmail.com<br>http://bsu.edu.az/az/<br>/content/bak_universitetinin_xbrlri_sosialsiyasi_elmlr_seriyas |
| 10. | “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalı | (012) 361 14 02 | htihm@prosecutor.gov.az<br>https://genprosecutor.gov.az/az/page/media/<br>azerbaycan-prokurorlugu-jurnali |
| 11. | “Hüquqi elmlər və təhsil” jurnalı; Juridical Sciences and Education; Юридические науки и образование | (012) 496 95 74<br>(050) 340 36 99 | mopi_sid@yahoo.com<br>https://www.iolr.org/?page_id=3346 |

| | | | |
|---|---|---|---|
| 12. | “Beynəlxalq hüquq və inteqrasiya problemləri” jurnalı | (050) 331 31 66<br>(055) 340 50 44 | al.amir.ibr@gmail.com<br>info@jilip.org<br>http://jilip.org/az/ |
| 13. | “Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri” jurnalı | (012) 598 53 72 | info@expert.gov.az<br>https://expert.gov.az/jurnal |
| 14. | AMEA-nın “Məruzələr” jurnalı | (012) 492 80 07 | ameakatib@mail.ru<br>https://dergipark.anas.az/index.php/anasreports |
| 15. | “Cəmiyyət və cəza” jurnalı | (012) 493 24 86 | info@penitensiar.justice.gov.az<br>https://penitensiar.justice.gov.az/home/1 |
| 16. | “Nəqliyyat hüququ” jurnalı | (012) 533 97 90<br>(050) 210 24 42 | a-etibar@rambler.ru<br>https://law-plane.az/ |
| 17. | “Elmi məcmuələr” jurnalı | (012) 525 98 08 | em@naa.edu.az<br>https://science.naa.edu.az/az/elmi-m%C9%99cmu%C9%99l%C9%99r/ |
| 18. | “Elmi əsərlər. İctimai elmlər seriyası” jurnalı | (036) 545 45 59<br>(036) 544 08 61<br>(055) 947 71 59 | www.jurnal.ndu.edu.az/#<br>elmieserler@ndu.edu.az |
| 19. | "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı | (012) 492 65 29<br>(012) 437 19 75<br>(012) 497 71 86 | publishing@dia.edu.az<br>https://dia.edu.az/arxivl%C9%99r/research/dovlet-idareciliyi-nezeriyye-ve-tecrube-jurnali |
| 20. | “Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri” jurnalı | (055) 465 85 27 | info@oyu.edu.az<br>https://oyu.edu.az/az/journals |
| 21. | “Sosial elmlər” jurnalı | (012) 492 51 80<br>(055) 558 10 80 | socialsciences.anas@gmail.com<br>https://socialsciences.az/ |
| 22. | “Gənc tədqiqatçı” jurnalı | (050) 450 50 64 | genctedqiqatchi@gmail.com<br>gencalim@science.az<br>https://gencalimler.az/az/content/318 |
| 23. | “Hüquqi müstəvi” jurnalı | (012) 533 97 90<br>(050) 210 24 42 | a-etibar@rambler.ru<br>https://law-plane.az/ |

HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU
PUBLİK HÜQUQİ ŞƏXS

| İnstitutun saytı | Virtual kitabxana | Facebook səhifəsi |
|---|---|---|
| www.lhri.az | https://lhri.az/az/library | fb.com/www.lhri.az |

**“Hüquq və İnsan Haqları İnstitutu” publik hüquqi şəxs**
Bakı şəhəri, Hüseyn Cavid prospekti 125, AZ1143
info@lhri.az
www.lhri.az
+994125372073